# 2015-ci il «Kənd təsərrüfatı ili»dir

## Torpağa toxum düşür

Taxıl elin sərvəti, əvəzsiz qida nemətidir. Elə buna görə də kənd adamının bu əvəzsiz nemətin əkininə marağı ilbəil artır. Əkin-biçinlə məşğul olan torpaq sahibkarları, iri fermer təsərrüfatlarının kollektivləri qızılı payızın bu çağında taxıl səpinini optimal müddətdə və keyfiyyətlə aparmaq üçün bütün lazımi imkanlarını səfərbər edirlər.

Qəbələ kəndliləri taxıl əkini ilə lap qədim zamanlardan məşğuldur. Odur ki, onların təknələri və süfrələri həmişə halal və bol çörəklə dolu olub. Bir məsələ də qeyd edilməlidir ki, ölkəmiz ikinci dəfə müstəqilliyə qovuşuqdan sonra taxılçılıqla məşğul olan kəndlilərin bu sahəyə marağı birə iki qat artmışdır. Birincisi ona görə ki, torpağın əsl sahibi kəndli olmuş, ikincisi isə əkin-biçinlə məşğul olanlara dövlət başçısı cənab İlham Əliyevin başçılığı ilə hökumətin qayğısı ildən-ilə artır. Ümumiyyətlə, ölkəmizin başçısı cənab İlham Əliyevin 23 yanvar 2007-ci il tarixdə imzaladığı «Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında» məlum sərəncamı bütövlükdə aqrar sahədə canlanma yaratmışdır.

Bunu dağ rayonu olan Qəbələ taxılçılarının timsalında daha aydın görmək olar. 2015-ci ildə rayonumuzda əvvəlki illərdən fərqli olaraq xeyli artıq kənd təsərrüfatı məhsulları əkilmiş və yetişdirilmişdir. Taxılçılıq sahəsində isə demək olar ki, rekord göstərici əldə olunmuşdur. Belə ki, 21.300 hektar əkin sahəsindən 64.645 ton taxıl əldə edilmişdir.

Taxıl əkib-becərən «Gilan» MMC-nin, «Həsrət» kəndli fermer təsərrüfatlarının, Kürd, Bayramkoxalı, Əmirvan, Zalam kəndlərinin, Nic qəsəbəsinin torpaq sahibləri taxılçılıq sahəsində ən yüksək nəticə qazanmışlar. Sözügedən təsərrüfatların, hüquqi və fiziki subyektlərinin işə sahibkarlıq hissi ilə yanaşması nəticəsində zəmilərdən bol arpa və buğda toplanmışdır.



Rayonda taxılçılığın inkişafı bilavasitə toxumçuluğun inkişafı, rayonlaşdırılmış toxum sortlarının düzgün seçimi ilə də bağlıdır. Hazırda Qəbələdə Kənd Təsərrüfatı Nazirliyi tərəfindən lisenziya alan 6 özəl toxumçuluq təsərrüfatı fəaliyyət göstərir. Əvvəllər başqa yerlərdən sortu, keyfiyyəti və mənşəyi məlum olmayan toxum sortları gətirilirdisə, indi Qəbələdə toxumçuluqla məşğul olan fermerlər özlərini toxumla təmin etməklə yanaşı, taxıl əkini ilə məşğul olanlara ən sərfəli qiymətlə toxum satırlar.

Hazırda Qəbələdə payızlıq dənli bitkilər əkininin ən optimal çağıdır. Traktorların səsi sahələrdən bir an belə kəsilmir. Hamı istəyir ki, əlverişli keçən hava şəraitində səpini optimal müddətdə başa çatdırsın. Bu payız rayon üzrə 23 min hektarda taxıl əkini proqnozlaşdırılıb. Bu mühüm kampaniyanın aqrotexniki qaydalara uyğun aparılmasında «Aqrolizinq»-in rayondakı filialının işçiləri də var qüvvə ilə çalışırlar, istəyirlər ki, işin sürəti də, keyfiyyəti də torpaq mülkiyyətçilərinin ürəyincə olsun, səpin qısa müddətdə başa çatsın.

Filial cari ilin ötən vaxtı ərzində mülkiyyətçilərə vermək üçün 300 ton mineral gübrə gətirmişdir. Bütövlükdə, taxıl əkininə rayonda 45 şum traktoru, 30 səpin aqreqatı, 30 mala cəlb edilmişdir. Eyni zamanda mütəxəssislər hər gün taxıl əkinini və digər kənd təsərrüfatı işlərinin gedişini diqqət mərkəzində saxlayır, yaranan çətinliyin, problemlərin aradan qaldırılması üçün təxirəsalınmaz tədbirlər görürlər. Qəsəbə və kəndlərin inzibati ərazi nümayəndələri, yerli bələdiyyələr də bu mühüm kampaniyada yaxından iştirak edirlər.

Hazırda 11.400 hektar sahədə payızlıq taxıl əkini üçün şum çıxarılmış, 1.000 hektar sahədə isə arpa səpini aparılmışdır. Rayonun bütün təsərrüfatlarında şum çıxarılması işi davam edir, arpa səpini aparılır. Buğda səpini üçün yerlərdə toxum hazırlığına diqqət yetirilib. Səpin üçün 4 min tondan çox toxum təmizlənmiş, laboratoriya analizindən keçirilmişdir. Bununla səpində məhsuldar, yerli iqlim şəraitinə uyğunlaşmış və cavan nəsil toxum materiallarından istifadə olunmasının vacibliyi barədə istehsalçıların arasında geniş izahat işləri aparılır. Payız mövsümündə taxıl səpinini optimal müddətdə başa çatdırmaq üçün səpində istifadə olunan texnika və aqreqatlar tam saz halda şum çıxarır, səpin aparır.

**Elmdar ŞƏRİFOV,**
**rayon icra hakimiyyətinin baş məsləhətçisi.**

## 6300 ton məhsul yığılıb

Fındıqçılıq rayonumuzun iqtisadiyyatında aparıcı yerlərdən birini tutur, kənd əhalisinin əsas məşğuliyyət sahələrindən biri hesab olunur.

Rayonda fındıq yığımı başa çatıb. Mövcud 3210 hektar fındıq bağından qərsəksiz 6300 ton məhsul əldə edilib. Bu da ötən ilkindən 150 ton çoxdur. Məhsul sahibləri məhsulu yerli bazarlara çıxarmaqla yanaşı, sərfəli qiymətə fındıq qəbulu məntəqələrinə də satırlar. Rayonda bir fındıq emalı zavodu, eləcə də kiçik fındıq emalı müəssisələri fəaliyyət göstərir. Bu da kəndliləri ildən-ilə fındıq bağlarını genişləndirməyə və məhsuldarlığı artırmağa həvəsləndirir.

Qeyd edək ki, bu il 45 hektar sahədə yeni fındıq bağı salınıb.

**«Qəbələ».**

## Arı ailələrinin sayı və məhsul istehsalı artıb

Son illər arıçılığın sürətlə inkişaf etdirildiyi rayonumuzda arı ailələrinin sayı və məhsuldarlıq ildən-ilə artırılır.

Dağlıq və düzənlik əraziləri olan rayonumuzda iqtisadi baxımdan çox sərfəli sayılan arıçılığın inkişafı üçün münbit şərait vardır. Arıçılığın daha da inkişaf etdirilməsi, bu sahə ilə məşğul olan sahibkarların işinin əlaqələndirilməsi üçün Azərbaycan Arıçılar Birliyinin Qəbələ rayon şöbəsi yaradılıb. "Arıçılıq haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq rayonda görülən işlərin nəticəsidir ki, bu sahəyə maraq göstərən fiziki şəxslərin sayı ildən-ilə artır. Son bir ildə rayonda 36 fiziki şəxs fərdi arıçılıq təsərrüfatı yaradıb və 192 yeni arı ailəsi formalaşdırılıb. Hazırda rayonumuzda arıçılıqla məşğul olan fiziki şəxslərin sayı 633-ə, arı ailələrinin sayı isə 1625-ə çatıb.

Rayonun Vəndam qəsəbəsində 25 ildir arıçılıqla məşğul olan Tahir Rəcəbov deyir ki, rayonda arıların qidalanması üçün 50-yə yaxın bitki mövcuddur. Yüksək keyfiyyətli məhsul əldə etmək üçün arı ailələrinə xüsusi qulluq göstərmək lazımdır. Mütəxəssis təmiz balı saxta baldan ayırmağın yollarını izah edərək deyib: "Təmiz balı



yandıranda o, yanmamalı, yağ kimi əriməlidir. Bal süzüləndə qaşıqda qalmalı, uzun müddət qalan bal isə kərə yağına bənzər görünüş almalıdır. Balın rəngində müəyyən fərqlərin olması arıların qidalandığı çiçəklərlə əlaqədardır. Ötən illərə nisbətən bu il daha çox məhsul əldə edilib. Ümumiyyətlə, yaxşı qulluq olunarsa, hər arı ailəsindən ildə 10 kiloqrama yaxın bal almaq mümkündür".

İnsan orqanizmi üçün əhəmiyyətinə görə, balın üstünlüklərinin olduqca çox olduğunu deyən mütəxəssis bu faydalı həşəratın baldan daha keyfiyyətli məhsullar da istehsal etdiyini bildirib. Belə ki, bal məhsulu ilə müqayisədə arı südü 18 dəfə güclüdür. Çiçək tozu epilepsiya, bir sıra qan xəstəliklərinin müalicəsində əhəmiyyətli rola malikdir. Arı zəhəri, qara mum və sadə mum da arının keyfiyyətli məhsullarından hesab olunur.

Qeyd edək ki, ötən il və bu il rayonumuzun arıçıları nəzərdə tutulduğundan çox bal istehsal ediblər. Yaxın illərdə rayonun damazlıq təsərrüfatında arı ailələrinin sayının 2 dəfə artırılması nəzərdə tutulub.

**«Qəbələ».**